# Dünyanın görkəmli dövlət və siyasi xadimləri ümummilli lider Heydər Əliyev haqqında



*Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi dəyərləndirirəm. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi, bu ölkədə insan haqlarının qorunması, demokratiyanın möhkəmlənməsi,daim inkişafda olması məhz Heydər Əliyevin siyasətinin nəticəsidir.*

*...Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.*

*...Prezident Heydər Əliyevi Parisdə qəbul etmək mənim üçün böyük sevincdir. Çoxdandır ki, bizim aramızda qarşılıqlı dostluq münasibətlərindən də artıq əlaqələr yaranmışdır. Mən Prezident Heydər Əliyevə dərin hörmət bəsləyirəm.*



**Jak ŞİRAK,**
**Fransa Prezidenti (1995–2007-ci illərdə)**

*Azərbaycan Prezidentinin Qafqazda atdığı addımları Birləşmiş Ştatlarda diqqətlə izləyirlər. Azərbaycan çox mürəkkəb coğrafi-siyasi məkanda yerləşən dövlətdir. ABŞ və Qərb ölkələri ilə əlaqələri inkişaf etdirməyi, bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olması üçün əzmlə çalışmağı qarşısına məqsəd qoyan Prezident Heydər Əliyevin fəaliyyəti təqdirəlayiqdir. Heydər Əliyev müstəqilliyi qoruyub saxlamaq uğrunda əzmlə, qətiyyətlə mübarizə aparır.*



**Henri KİSSİNCER,**
**ABŞ-ın sabiq dövlət katibi,**
**görkəmli ictimai-siyasi xadim**



*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin simasında özümə yaxın dost və sirdaş tapmağımdan məmnunam. Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm.*

**Butros QALİ,**
**BMT-nin Baş katibi**
**(1992–1996-cı illərdə)**

*Azərbaycan çox mühüm ölkədir, Siz çox görkəmli lidersiniz. Amerikada bunu getdikcə dərindən başa düşürlər. Elə buna görə də Azərbaycan – Amerika münasibətlərinin yalnız ikitərəfli deyil, həm də böyük regional, strateji əhəmiyyəti var. Sizinlə söhbətlərimdən çox bəhrələnmişəm. Çünki ABŞ üçün mühüm olan ölkələr haqqında Sizin geniş məlumatınız var.*



**Zbiqnev BJEZİNSKİ,**
**ABŞ Prezidentinin sabiq müşaviri,**
**məşhur politoloq və siyasi xadim**

*Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin keçmiş zamanda xidmət göstərdiyi vaxt yaradılmışdır. İndi yenidən canlanma gedir. Amma hörmətli Heydər Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsələ sabitlikdir.*

*Hörmətli Heydər Əliyev böyük tarixi şəxsiyyətdir. Bunu onunla yaxın olduğuma görə söyləmirəm. Azərbaycana olan sevgimdən, məhəbbətimdən söyləyirəm. Azərbaycan xalqının rifahı və səadəti baxımından söyləyirəm.*

*Hörmətli Heydər Əliyev dünyada tanınan adamdır. Hansı qapını döysə, o qapı açılır. İstədiyi zaman Şirakla, istədiyi zaman Buşla, istədiyi zaman istənilən insanla danışır. Azərbaycan dövlətini dünyada etibarlı şəkildə təmsil etməkdədir.*



**Süleyman DƏMİRƏL,**
**Türkiyə Prezidenti**
**(1993–2000-ci illərdə)**



*Mən Sizin Azərbaycanı müasir və firavan dövlətə çevirmək yolunda üzləşdiyiniz çətinliklərin öhdəsindən gəlmək səylərinizi yüksək qiymətləndirirəm. Xahiş edirəm əmin olasınız ki, mənim administrasiyam 907-ci düzəlişin konqresdə ləğvinə nail olmaq üçün çalışmaqda davam edəcək ki, bu, bizə Azərbaycanda demokratiya və bazar iqtisadiyyatı yaradılması səylərində maksimum səylərinizi göstərməyə imkan versin. Bu mənada, Qafqaz regionunda iqtisadi əlaqələrin yenidən qurulması və Azərbaycanda demokratik institutların və təcrübələrin möhkəmləndirilməsi üçün biz Sizinlə işləmək marağında qalırıq.*

**Bill KLİNTON,**
**ABŞ Prezidenti**
**(1993–2001-ci illərdə)**

*Hörmətli Heydər Əliyevlə ünsiyyət məni həm də bir çox cəhətdən zənginləşdirir. Çünki onun həyat yolu, olduqca böyük siyasi və dövlət fəaliyyəti təcrübəsi mənə də çox şey verir. Bəzən bu və digər problemi, necə deyərlər, sıyrılmış qılıncla həll etmək istəyirsən, müdrik bir insan olan Heydər Əliyev isə tələsməməyi məsləhət görür. Hərçənd dəqiq, sərt mövqe onun həmişə xas olan xüsusiyyətdir.*

*... Heydər Əliyev məhz bu mürəkkəb keçid dövrü ərzində bütün məsələlərdə ardıcıllıq nümayiş etdirmiş bir insandır. Buna görə də ona MDB liderləri hörmət bəsləyir, ondan nümunə götürürlər.*

*Ona heç də təkcə MDB liderləri hörmət etmirlər, Heydər Əliyev bütün dünyada məşhurdur.*

*...Heydər Əliyevin tarixdə rolunu və yerini birinci yerə çıxarmaq istəyirəm.*



**Leonid KUÇMA,**
**Ukrayna Prezidenti**
**(1994–2005-ci illərdə)**



*Polşada Sizi görkəmli dövlət xadimi və dost dövlətin lideri kimi, bir neçə il əvvəl Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliyin arxitektorlarından biri kimi tanıyır və qiymətləndirirlər. Biz Xəzər dənizi hövzəsinin strateji cəhətdən çox mühüm regionunda vəziyyətin normallaşdırılması üçün Sizin göstərdiyiniz diplomatik fəallığı xüsusi diqqətlə izləyirik.*

**Aleksandr KVASNEVSKİ**
**Polşa Prezidenti**
**(1995–2005-ci illərdə)**

*Postsovet məkanındakı heç də bütün dövlətlərdə Azərbaycan Prezidenti kimi belə müdrik, təcrübəli adamlar dərhal rəhbərliyə gəlməmişlər. Mənə elə gəlir ki, bu, təsadüfi deyildir. Ona görə təsadüfi deyil ki, bütövlükdə, postsovet məkanında baş verən proseslər nə qədər mürəkkəb olsa da, dövlətlərimizin xalqlarının tələbləri bu münasibətlərdə müsbət nəticə əldə olunmasına yönəldilmişdir. Təbii ki, onlar bu problemləri həll etməyə qadir insanları irəli çəkirlər.*

*...Rusiya ilə Azərbaycan arasında ənənəvi münasibətlər var, biz bu barədə çox danışmışıq və yerli rəhbərliyin, Prezident Heydər Əliyevin xidmətlərini lazımınca qiymətləndirmək gərəkdir.*

*...Heydər Əliyevi onu yanında tərifləmək mənim üçün münasib deyil. Lakin onun dövlət müdrikliyini, – daha münasib söz tapmaq*



*çətindir, – qeyd etməyə bilmərəm. Bu da ondan ibarətdir ki, Sovet İttifaqının dağılmasından sonra gedən çox mürəkkəb proseslərə baxmayaraq, – bu barədə heç vaxt açıq danışmasaq da, – nə gizlədim, Azərbaycanla Rusiya arasında münasibətlərdə hər halda müəyyən gərginlik olmuşdur. Azərbaycanda rus mədəniyyətinə və rus dilinə münasibət faktı, – bu isə məhz Azərbaycan Prezidentinin son illərdə apardığı həmin siyasətdir, – təkcə dövlətlərarası münasibətlərin əvvəlki səviyyədə bərpası üçün deyil, həm də bu münasibətlərin ölkələrimizin xalqlarının mənafeyi naminə inkişafı üçün qapıları açıq qoymuşlar.*

**Vladimir PUTİN,**
**Rusiya Federasiyasının Prezidenti**

*Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə, beynəlxalq aləmdə tanınmış siyasətçi və dövlət xadimi kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin "polad iradəli Əliyev" yazdığı kimi, o, həqiqətən də polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü, müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlmişdir, bir çox çətinliklərə sinə gərərək, Azərbaycanı böhranlı vəziyyətdən xilas etmişdir.*

*...Bizim dostumuz, qardaşımız Azərbaycan Prezidentinin qarşısında etiraf etmək istəyirəm ki, burada yaşayan azərbaycanlılara qarşı bir neçə il bundan əvvəl ədalətsiz hərəkətlərə yol verilmişdir. Mən Azərbaycan Prezidenti Heydər Əliyevin yanında kişi kimi söz verirəm ki, o qara günlər Gürcüstanda bir daha təkrar olmayacaq.*



**Eduard ŞEVARDNADZE**
**Gürcüstan Prezidenti**
**(1995–2003-cü illərdə)**

*Heydər Əliyev, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan xalqı üçün, Yer üzündəki bütün türk xalqları üçün qədir-qiymətinizi bilirəm.*

*...Çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında, azad və məşhur insanlar olsunlar. Heydər Əliyev, Sizin kimi rəhbərlərin xidməti məhz bundan ibarətdir.*



**Oljas SÜLEYMENOV,**
**Qazaxıstan yazıçısı,**
**səfir**